UOT 94 “04/15”

# HÖRMÜZ UĞRUNDA SƏFƏVİLƏRİN MÜBARİZƏSİ VƏ NƏTİCƏLƏRİ

**N.B.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***nazile.mamedova@gmail.com***

*XVII əsrin ikinci onilliyinin sonu və üçüncü onilliyinin əvvəli Ost-Hind şirkətinin Səfəvilər dövlətində göstərdiyi fəaliyyətin kulminasiya nöqtəsidir, məhz bu dövrdə şirkət Orta Şərqdə fəal müstəmləkə ekspansiyası siyasəti yeridirdi.*

*Bu dövrdə Səfəvilər imperiyasında inigilslərlə portuqallar arasında kəski mübarizə başlamışdı. Bu mübarizənin gedişində portuqalların Hörmüzdən qovulmasında maraqlı olan və bu məqsədlə şirkətin donanmasından istifadə etməyə çalışan şah Abbas qətiyyətlə İngiltərəni müdafiə etdi.*

*Hörmüz məsələsinin həlli zamanı şah Abbasın diplomatik bacarığı özünü göstərdi. Hörmüzü ingilislərə verməyi vəd edən şah İran ərazisinin bir hissəsini geri qaytarmaq üçün yaranmış vəziyyətdən məharətlə istifadə etdi.*

**Açar sözlər:** ticarət, İran körfəzi, Hörmüz, müstəmləkəçilik

XVI əsrin 80-ci illərinə doğru portuqalların İran körfəzi bölgəsində vəziyyəti xeyli zəiflədi. Ələlxüsus 1581-ci ildə Portuqaliya krallığının İspaniyaya birləşməsilə onun bütün müstəmləkə mülklərinin II Filipin nəzarətinə keçməsi vəziyyəti bir qədər də ağırlaşdırdı (5, 170). İspaniya daha çox Avropa siyasətilə məşğul idi: II Filip üçün ən böyük məsələ İngiltərəni dənizlərdən sıxışdırmaq və Atlantikaya yolunu bağlamaq olduğundan, Şərqdəki müstəmləkələr, o cümlədən, Hörmüzün müdafiəsi məsələsi ikinci plana keçmişdi. 1588-ci ildə «Məğlubedilməz Armada» İngiltərə ilə müharibəyə hazırlaşır. Həmin ilin iyununda təşkil olunmuş ekspedisiya ispanların ağır məğlubiyyəti ilə başa çatır (5, 170). Bu məğlubiyyət İspaniyanın Atlantikadakı qüdrətinə böyük zərbə vurur və onun Avropadakı nüfuzunu endirmiş olur.

Hörmüz İspaniya taxt-tacı üçün sadəcə bir gəlir mənbəyi kimi qalırdı. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, 1581-ci ildə Hörmüzün portuqal xəzinəsinə verdiyi gəlir 51 milyon gümüş reys, buraya sərf olunan xərc isə yalnız 11 milyon olmuşdur, yəni limanın gətirdiyi gəlirin saldosu 40 milyon reys idi. Hörmüzün Səfəvilər tərəfindən geri alınması ərəfəsində isə bu rəqəm

bir qədər də artaraq 172.000 qızıl serafin olmuşdur (7, 216). Göründüyü kimi, Hörmüz Portuqaliya üçün əvəzedilməz gəlir mənbəyi idi və bu “mənbəyə” qarşı portuqalların xeyli mərhəmətli siyasəti anlaşılandır. Halbuki Hörmüz təkcə ticarət əhəmiyyətli şəhər deyildi, həm də İspaniya üçün şərq yarımkürəsində mülklərini qoruyub saxlamaq üçün strrateji əhəmiyyətli bir şəhər idi.

Hörmüzdə portuqal hakimiyyətinin zəifləməsinin daha bir səbəbi İspaniyanın daxilində baş verən hadisələr oldu. Belə ki, 1598-ci ildə II Filipin vəfatında sonra hakimiyyətə onun oğlu III Filip gəldi (5, 171). Bu kralın dövründə İspaniyanın onsuz da zəifləmiş beynəlxalq nüfuzu aşağı düşür və İspaniyanın İngiltərə ilə yaxınlaşması baş verir.

Hollandiyaya qarşı mübarizədə Ədviyyat adalarındakı uğursuzluqlar və Hindistan bazarında ingilis mallarına tələbatın olmaması Ost-Hind şirkətini Səfəvilərlə ticarət və diplomatik münasibətlər yaratmağın zəruriliyinə inandırırdı. Şah Abbasın Hörmüz məsələsindəki mövqeyi ingilis şirkətinin mənafeyi ilə üt-üstə düşürdü, bu da İngiltərənin Səfəvi dövlətində, xüsusən İran körfəzində mövqeyinin son dərəcə güclənməsinə səbəb oldu.

Səfəvilərlə ticarət müqaviləsi bağlamaq üçün kraldan səlahiyyətlər almış T.Roy 1616-cı ildə E.Kennokun başçılığı ilə buraya bir neçə faktor göndərdi. Surat faktorları şurası E.Kennokun başçılığı ilə Səfəvilərə göndərilən nümayəndələrin səlahiyyətlərini müəyyənləşdirdi və onlar üçün xüsusi təlimat hazırladı (1, 69). 1616-cı ildə şirkətin ilk gəmisi Cask şəhərinə gəldi, ingilis tacirləri Muxistanda Hörmüz əyalətinin başçısı ilə görüşdükdən sonra İsfahana gələrək öz mallarını xam ipək və digər Şərq mallarına dəyişdilər. Şirkətin agentləri İspaniya və Portuqaliyanın İran ticarətini inhisara almaq və ingilisləri buraya buraxmamaq cəhdləri barədə İsfahandan məlumat verirdilər. Onların fikrincə, ipək alveri haqqında İspaniya kralı ilə müqavilə bağlamaq və bütün Səfəvi limanlarını hərbi cəhətdən möhkəmləndirmək barədə ispanlara təklif vermək üçün 1615-ci ildə Avropaya getmiş Robet Şeirlinin bu işdə əli vardı (1, 69-70). İngiltərənin İspaniyadakı səfiri F.Kotinqton dövlət katibi Uinvuda məktubunda yazırdı: “Qoadan qraf Lermaya məktub gətirmiş Robert Şeirlinin İspaniyaya gəlməsi haqqında məlumat alınmışdır” (1, 70).

1617-ci ildə ingilis şirkəti nümayəndələrinin şah Abbasla görüşü ərəfəsində və görüş zamanı portuqallar ingilislərə qarşı qızğın fəaliyyətə başladılar. Agentlər şirkətin idarə heyətinə məktubda yazırdılar ki, onlardan iki gün əvvəl böyük məbləğdə pul və daha böyük böhtanla İsfahana şahın yanına gəlmiş Avqustin monastrının rahibi və ispan kralının agenti bizi qovmaq üçün şaha sübut etməyə çalışırdı ki, onların gətirdiyi məktub saxtadır. Həqiqətən, məktub T.Roy tərəfindən yazılmışdı (3, 37).

Portuqaliya casusunun bütün səylərinə baxmayaraq, şah Abbas ingilislərə istədikləri yerdə ticarət etmək hüququ verdi və Kennokun verdiyi məlumata görə, kralı özünün böyük qardaşı adlandırdı. Təbiidir ki. şah Abbas Hörmüzü qaytarmaq üçün özünə müttəfiq axtarırdı və o, bildirdi ki, “ingilislər yalançılıq və hiyləgərlikdən azad xalqdır, portuqallar isə 20 il ərzində bir dəfə də olsun

düz söz danışmayıblar" (1, 70). İngilis tacirlərinin iştirak etdiyi qəbul zamanı Portuqaliya nümayəndəsi Səfəvilər tərəfindən qaytarılmış Qombrun və digər ərazilərin Portuqaliyaya verilməsi və bütün avropalıların İran limanlarından qovulması haqqında və hökumətinin ultimatumunu şah Abbasa təqdim etdi. Şah bu tələblərdən qeyzə gəldi və Portuqaliyanını ultimatumunu nümayişkaranə surətdə cırdı. Şah bildirdi ki, "tutduğu torpaqları qaytarmayacaq və portuqalları Hörmüzdən qovacaq" (1, 70).

Hadisələrin bu cür inkişafı və Səfəvilər dövləti ilə ticarətin böyük imkanları şirkətin nümayəndəsi Kennoku tamamilə qane edirdi. O, Şirkətin idarə heyətinə bildirdi ki, qazandıqları sərvət bütün xərcləri ödəyəcək. Artıq 1617-ci ildə Caskda, İsfahanda və Şirazda ingilislərin faktoriyaları yaradıldı (2, 38). Şah Abbas E.Kennoka imtiyazlar haqqında fərman və İngiltərə kralına yazılmış "çox əhəmiyyətli məktub" verdi. Məktubda qeyd edilirdi ki, "bu gendən onun ölkəsi və əyalətləri sərbəst ticarətlə məşğul olmaq istəyən bütün xristian xalqları üçün açıqdır" (1, 71).

Beləliklə, ingilis Ost-Hind şirkətinin Səfəvilər dövlətindəki agentləri qarşısında başlıca vəzifə yerinə yetirildi. Qeyd edək ki, "İran məsələsi"ndə ingilislər T.Royun "Hindistanın ən gözəl çiçəyi" adlandırdığı Hörmüzə xüsusi diqqət ayırırdılar. Hələ 1609-cu ildə Səfəvilərin xidmətində olan ingilis təbəəsi T.Boys qraf R.Solsberiyə məktubunda yazırdı ki, "Hörmüzə yiyələnmiş portuqallar Hindistanın açarını öz əllərində saxlayırlar" (1, 72). İran körfəzində portuqal ağalığı ingilis tacirlərini açıq-aşkar qıcıqlandırırdı və onlar öz rəqiblərini buradan sıxışdırıb çıxarmaq niyyətində idilər.

Dərin müşahidə qabiliyyətinə malik olan ingilis tacirləri Qombrun, Cask və xüsusən Hörmüz limanlarının əhəmiyyətini başa düşür, bu bölgədə Portuqaliyanın mövqeyinin zəiflədiləcəyinə inanırdılar. Kral I Ceyms də ingilis tacirlərinin Səfəvilər dövlətindəki fəaliyyətini dəstəkləyirdi. 1618-ci ilin sonlarında T.Roy şirkətin İsfahandakı agentinə İngiltərə ilə Səfəvilər arasında müqavilə bağlamaq barədə göstəriş verdi. İngiltərə kralı adından şaha təqdim olunan müqavilə layihəsinə daxil edilmiş əsas tələblər aşağıdakılar idi:

1. İki qüdrətli hörkmdar arasında əbədi məhəbbət, ittifaq və dostluq olsun, müvafiq saraylarda böyük və kiçik səfirlər otursunlar.
2. İranın bütün limanlarında ingilislərə öz yüklərini sərbəst boşaltmaq hüququ verilsin, gəmi qəzaları zamanı malların xilas olunmasına yardım edilsin.
3. İngilislər öz dinlərinə sərbəst ibadət etsinlər, İslam dininə keçməyə məcbur buraxılmasınlar.
4. İngilislərə özlərini müdafiə etmək üçün silah gəzdirmələrinə icazə verilsin.
5. İngilis malları gömrüksüz aparılsın və gətirilsin.
6. İngilislərin dinc ticarətinə mane olduqda onlara Portuqaliya gəmilərinə hücum etmək və onları ələ keçirmək hüququ verilsin.
7. Səfəvi hökmdarı Caskda qala tikdirsin və bu qala müəyyən müddətə ingilislərə verilsin (2, 38).

Qeyd edək ki, bu maddələrin hamısı 1621-ci ildə bağlanan müqaviləyə

daxil edilmişdi. Müqavilə bağlanana qədər şah Abbas ingilislər üçün çox faydalı olan 3 fərman verdi, bu fərmanlara görə əsasən ingilis tacirlərinə nəqd pulla ipək almaq hüququ verilirdi.

Bu fərmanlar alınandan sonra İngiltərənin İran körfəzi bölgəsində mövqeyi xeyli möhkəmləndi, amma eyni zamanda Səfəvilərlə Portuqaliya və İngiltərə ilə Portuqaliya arasında münasibətlər çox gərginləşdi. Hadisələrin gedişi Səfəvilər dövlətilə Ost-Hind şirkəti arasında müqavilə bağlanması və portuqallara qarşı birgə hərbi əməliyyat keçirilməsini zəruri etdi.

Qeyd edək ki, İngiltərə ilə müqavilə imzalanması ərəfəsində şah Abbasın diplomatik istedadı özünü göstərdi. Portuqallara qarşı mübarizədə ingilisləri qətiyyətlə müdafiə edən, "Hörmüzü ingilis millətinə verəcəyini" vəd edən şah işğal olunmuş İran ərazisini geri qaytarmaq üçün yaranmış vəziyyətdən məharətlə istifadə etdi. Qombrunu və Bəhreyni qaytarmağı tələb edən İspaniya kralının növbəti ultimatumuna cavab olaraq şah bu məktubu cırıb atdı və and içdi ki, İspaniya kralının təbəələri bundan sonra Hörmüzə buraxılmayacaqlar.

Fransa tacirləri İngiltərə tacirlərini Suratdan və İrandan qovmaq üçün portuqalların Qoada apardıqları böyük hazırlıq işləri barədə məlumat verirdilər. Bu məlumata əsasən Qoada kralın müavini Hörmüzə göndərmək üçün 4 böyük gəmi, 2 barkas və 200 top hazırlamağı əmr etmişdi (1, 79). Bu hazırlıqlar çox çəkmədi. 1619-cu ildə 2500 nəfər əsgərlə birlikdə 4 qaleondan ibarət Portuqaliya donanması Hörmüzə daxil oldu (1, 79). Portuqallara qarşı mübarizədə ingilislər mümkün olan bütün vasitələrdən istifadə edirdilər. 1619-cu il iyunun 26-da agentlərin İsfahanda keçirilən yığıncağında gələcək planlar müzakirə edildi (4, 51). 1619-cu ildə Rui Fereyra de Andradanın başçılığı ilə Lissabondan göndərilmiş 5 gəmidən ibarət yeni donanma 1620-ci ilin iyununda Hörmüzə gəldi. 1620-ci il dekabrın 29-da Rui Fereyranın "ingilis quldurlarını məhv etmək üçün Hörmüzə gəlmiş donanması" Cask limanı yaxınlığında ingilislər tərəfindən darmadağın edildi (1, 80).

1621-ci ildə İran körfəzinə Blayt və Uedlinin başçılığı ilə yeni ingilis donanması gəldi. Buna cavab olaraq portuqallar İran sahillərini talan etdilər, ələ keçirdikləri Səfəvi gəmilərini yandırdılar. Şah hökuməti ingilislərə yeni güzəştlər verməklə portuqallara qarşı birgə hərbi əməliyyat təklif etdi.

1621-ci il dekabrın əvvəllərində Şiraz xanı İmamqulu xan ümumi düşmənə - portuqallara qarşı mübarizə aparmaq üçün gəmilər vermək barədə ingilislərə müraciət etdi. 1621-ci ilin dekabrında İngilis-Səfəvi müqaviləsi bağlanır. Müqavilənin əsas bəndləri belə idi:

1. İranın bütün limanlarında ingilislərə sərbəst ticarət hüququ verilirdi.
2. İngilislərə Səfəvi dövləti ərazisində silah gəzdirməyə icazə verilirdi (özlərini müdafiə etmək üçün).
3. İngilis mallarının talanı baş versəydi, Səfəvi tərəfi malın dəyərini ödəməli idi.
4. Ərəblər, ermənilər, yəhudilər və ingilislər arasında baş verən münaqişəni qazi yalnız ingilis səfirinin və ya konsulunun iştirakı ilə həll edə bilərdi.
5. Səfəvilərin Osmanlılarla sülh bağlayacağı başlayacağı təqdirdə İngiltərə -

Səfəvi müqaviləsi qüvvədə qalmalı idi.

6. Səfəvi şahı Caskda istehkam tikməli, onu qarnizonla təmin etməli və müvəqqəti olaraq ingilislərin nəzarətinə verməli idi (2, 38).

İngiltərə ilə Səfəvilər arasında hərbi müqavilənin imzalanmasından sonra Keşm və Hörmüzün geri qaytarılması uğrunda hərbi əməliyyatlar başladı.

1622-ci il fevralın əvvəllərində İmamqulu xan Bəndər-Abbasa gəlmiş ingilis gəmilərinin kapitanlarına müraciət edərək Keşm və Hörmüz arasındakı portuqal eskadrasını neytrallaşdırmağı xahiş etdi. 1621-ci il müqaviləsinə uyğun olaraq belə bir yardım nəzərdə tutulmasına baxmayaraq, ingilislər əlavə imtiyazlar tələb etdilər: onlar portuqalların qovulmasından sonra Hörmüzün ingilislərə təhvil verilməsini, hərbi xərclərin ödənilməsini, Bəndər-Abbasın gömrükxanasının gəlirinin yarısını, İran körfəzində daimi olaraq iki ingilis gəmisinin saxlanmasına icazə verilməsini istəyirdilər (1, 80).

Lakin bu tələblərin qəbulu – bir müstəmləkəçinin digəri ilə əvəz olunması demək idi. Tələblərə cavab olaraq İmamqulu xan ingilisləri hədələdi ki, əgər hərbi yardım göstərilməsə ingilislər əvvəlki imtiyazlardan da məhrum ediləcək. Fevralın 11-də Səfəvi qoşunları Keşm qalasını ələ keçirdi, Rui Fereyra və digər əsir götürülmüş portuqallar İngiltərənin Hindistandakı müstəmləkə qərargahına – Surata aparıldı (6, 156). Keşm qalasının süqutu Hörmüzün süqutunun başlanğıcı oldu. Bunu Hörmüzdəki Portuqaliya məmurları da yaxşı başa düşürdülər. Hörmüz əməliyyatı 1622-ci il fevralın 10-da başlandı. Aprelin 23-də qadınlar və uşaqlarla birlikdə 3000 nəfərlik Portuqaliya qarnizonu təslim oldu (1, 84).

Hörmüzün azad edilməsi uğrunda İngiltərə-Səfəvi birgə hərbi əməliyyatının gedişi E.Monoksun gündəliyində ətraflı təsvir olunmuşdur. Bu təfsilat xüsusilə diqqətəlayiqdir və Hörmüz hadisələrinin nəinki Vətən tarixşünaslığında, həm də xarici ədəbiyyatda öz əksini tapmamış bir çox çalarlarını açmağa imkan verir. Həmin məlumatlar ilk dəfə olaraq Azərbaycan tarixçisi Bəxtiyar Əhmədovun "XVII əsrin birinci yarısında İngiltərənini Şərq siyasəti" adlı monoqrafiyasında (1) öz əksini tapmışdır. E.Monoksun gündəliyi eyni zamanda Hörmüz əməliyyatında ingilis donanmasının iştirakının əsl məqsədini üzə çıxarmağa imkan verir.

Qeyd edək ki, Hörmüz əməliyyatında ingilis gəmilərinin köməyi ilə adaya çıxarılmış 30000 nəfərdən çox Səfəvi əsgəri iştirak etmişdir. Onlar tezliklə qala yaxınlığında bazar meydanını ələ keçirmiş və portuqalları qalanın içərilərinə sıxışdırmışlar. E.Monoksun etiraflarına görə, ingilislərin hərbi əməliyyatlarda iştirakı Səfəvi əsgərlərinə verdikləri 25 çən barıtla məhdudlaşmışdı (1, 85).

Hörmüzün alınmasında cox zəif iştirak edən ingilislər qalanın talanında daha fəal oldular. İngilis mənbələrinin məlumatına görə, Hörmüzün alınması zamanı ingilis donanma heyətinin $^{3}/_{4}$–ü məhv oldu; lakin onlardan yalnız 20 nəfəri hərbi əməliyyatlarda həlak olmuşdu, qalanları isə istidən və xəstəlikdən ölmüşdü (2, 39). Hörmüzün alınmasında ingilislərin zəif iştirakının mühüm bir

səbəbi Stüartlar sülaləsinin İspaniya ilə münasibətləri korlamaq istəməməsi ilə bağlı idi.

Hörmüz Səfəvi hakimiyyətinə geri qaytarılsa da, ingilislər öz fitnə-fəsadlarından əl çəkməmişdilər. Onlar qalanın alınmasından sonra da portuqallarla danışıqları davam etdirirdilər. E.Monoksun məlumatına görə, təslim olmaq ərəfəsində portuqallar xəbər verirdilər ki, "biz onları Muskata və ya Hindistana göndərmək şərtilə özlərini bizə təslim etməyə hazırdırlar". Mənbələrin verdiyi məlumata görə, ingilislər gizli olaraq bir Portuqaliya gəmisini buraxmış və əvəzində 15-20 min funt sterlinq pul almışdılar (1, 85). Qala təslim olduqdan sonra qiymətli əşyaların aparılmasının qarşısını almaq məqsədilə İranın və Ost-Hind şirkətinin nümayəndələri şəhərdən çıxarılan adamları yoxlayırdılar. İngilislər bir çox varlı və rütbəli şəxslərin böyük var-dövlətlə qaladan gizlicə çıxmasını təşkil edir və sonra onları qarət edirdilər.

Hörmüzün Səfəvilər tərəfindən alınması Avropada böyük əks-səda doğurdu. Bu, İran körfəzində portuqal müstəmləkəçiliyinin məhvi demək idi. İngilislər isə portuqalların yerini tutmaq niyyətində idilər. XVII əsrin 30-40-cı illərində ingilislər nəinki Səfəvilərə yardım etmir, həm də İran körfəzində şahın hakimiyyətinin bərqərar olmasına mane olurdular.

Hörmüzün süqutu xəbəri ispaniyaya 1622-ci ilin dekabrında – İngiltərənin İspaniya ilə yaxınlaşmasının kulminasiya dövründə gəlib çatmışdı. Madriddən İngiltərə səfiri qraf Bristol Hörmüzün itirilməsi xəbərilə əlaqədar olaraq İspaniya hökumətinin hiddətləndiyini bildirirdi. Onun digər məktubunda göstərilirdi ki, "Hörmüzün ingilislərin köməyilə farslar tərəfindən tutulması Madriddə böyük qalmaqala səbəb olmuşdur. Hətta Konde de Olivares bu barədə bizə müraciət etmiş və ziyanı tam ödəməyi tələb etmişdir" (2, 39). Lakin nigah məsələsilə əlaqədar olaraq Uels şahzadəsi və hersoq Bekingemin Madridə gəlməsi Hörmüz məsləsinin müzakirəsini təxirə saldı. Buna baxmayaraq, İngiltərə hökuməti bir sıra tədbirlər görməli oldu. Dövlət katibi Konvayın məlumatına görə, kral bu məsələdən hiddətlənmiş və şirkəti quldurluqda təqsirləndirmişdi. Nəticədə dövlət katibi Madriddə İngiltərə səfirinə məlumat vermişdi ki, "tacirlər bu işdə iştirak etməyə məcbur olmuşlar" (2, 91). Lakin bəzi ingilis təbəələri, o cümlədən Ost-Hind şirkətinin bəzi nümayəndəlikləri (başda Surat faktoriyasının başçısı T.Rastel olmaqla) Hörmüzün tutulmasında ingilislərin iştirakını "xristianlar arasında ingilis millətini rüsvay edən hadisə kimi" qiymətləndirirdilər (6, 171).

İngiltərənin bütün səylərinə baxmayaraq, İspaniya hökuməti Hörmüz məsələsində Stüartları təsirləndirir və bu bölgədə itirilmiş mövqelərinin bərpası uğrunda mübarizəyə başlayır: 1623-cü ildə ispan kralı III Filipp öz səfirini – Qarsia da Silva Fiqueroanı İsfahana göndərir, lakin Abbas bu səfirliyə lazımi diqqət ayırmır (2, 39).

1631-ci ildə portuqalların Hörmüzü geri almaq cəhdi də boşa çıxır, 1640-cı ildə isə onlar Bəsrəni də itirirlər – şəhər Osmanlı hakimiyyətinə keçir. XVII əsrin 40-cı illəri portuqalların İran körfəzindən qəti şəkildə qovulması dövrü-

dür. 1643-cü ildə Soharı itirir, 1648-ci ildə Məsqatı təhvil verməli olurlar (2, 39). Portuqalların bölgədən qovulmasından qabaq burada ingilis-holland rəqabəti güclənir. Bu rəqabətə Fransa da qatılır.

Qeyd etmək lazımdır ki, portuqalların İran və Oman körfəzlərindən qovulması ərəfəsində üç Avropa dövləti arasında üstünlük Hollandiyanın əlində idi. Fransa Hollandiyadan quruda güclü olsa da, ticarətdə zəif idi. İngiltərə də müstəmləkə mülklərinin sahəsinə görə Hollandiyadan geri qalırdı; eyni zamanda, Hollandiya ticarətə cəlb etdiyi gəmilərin sayına görə də ingilisləri ötürdü. 1629-cu ildə şah Abbasın ölümündən sonra isə bölgədəki ticarət imtiyazları ixtisar edilmişdi. 1645-ci ildə hollandların İsfahandakı faktoriyasının başçısı Karl Konstant Keşm adasına hücum edərək Səfəvilərin ipək ticarətini blokadaya salır və Səfəvilər Holandiyaya gömrüksüz ticarət hüququ verir. Bundan sonra ingilislər öz ticarət bazalarını Bəndər-Abbasdan Bəsrəyə köçürməli oldu.

Bütün bunlar aşağıdakı nəticələrə gəlməyə imkan verir: XVII əsrin ikinci onilliyinin sonu və üçüncü onilliyinin əvvəli Ost-Hind şirkətinin Səfəvilər dövlətində göstərdiyi fəaliyyətin kulminasiya nöqtəsidir, məhz bu dövrdə şirkət Orta Şərqdə fəal müstəmləkə ekspansiyası siyasəti yeridirdi. Bu dövrdə Səfəvilər imperiyasında inigilslərlə portuqallar arasında kəskin mübarizə başlamışdı. Bu mübarizənin gedişində portuqalların Hörmüzdən qovulmasında maraqlı olan və bu məqsədlə şirkətin donanmasından istifadə etməyə çalışan şah Abbas qətiyyətlə İngiltərəni müdafiə etdi. Hörmüz məsələsinin həlli zamanı şah Abbasın diplomatik bacarığı özünü göstərdi. Hörmüzü ingilislərə verməyi vəd edən şah İran ərazisinin bir hissəsini geri qaytarmaq üçün yaranmış vəziyyətdən məharətlə istifadə etdi.

Hörmüz 100 illik portuqal əsarətindən xilas olub yenidən Azərbaycan Səfəvilər dövlətinin tərkibinə qatıldı.

## ƏDƏBİYYAT


1. Əhmədov B.Ə. XVII əsrin birinci yarısında İngiltərənin Şərq siyasəti. Bakı: Nafta press, 1998, 236 s.
2. Gözəlova Y.H. Beynəlxalq münasibətlər tarixi (XVI-XVII əsrin birinci yarısı). Bakı: Elm, 2006, 47 s.
3. Kerr G. Avrupanın kısa Tarihi. Türkçesi C.Atay. İstanbul: Kitap Yayın evi ltd, 2011, 108 s.
4. Roberts J.M. Dünya Tarihi. I Cilt. Çevireni İ.Erman. İstanbul: KB, 2011, 418 s.
5. История средних веков: в 2 т. Учебник. / Под ред. С.П.Карпова. Т.1-2. 2-е изд. М.: МГУ, 2011, т.1, 640 с., т.2, 432 с.
6. Можейко И.В. В Индийском океане. Очерки истории пиратства в Индийском океане и Южных морях (XV-XX вв.). М.: Наука, 1977, 336 с.
7. Хазанов А.М. Португалия и мусульманский мир (XV-XV вв.). М.: РАУ - Университет, 2003, 320 с.

## БОРЬБА СЕФЕВИДОВ ЗА ПЕРСИДСКИЙ ЗАЛИВ И ЕЕ ПОСЛЕДСТВИЯ

**Н.Б. МАМЕДОВА**

### РЕЗЮМЕ

Конец второй и начало третьей десятилетий XVII века является кульминационным моментом деятельности Ост-Индской компании в Сефевидском государстве. Именно в этот период компания проводила активную колониально экспансионистскую политику на Ближнем Востоке.

В этот период в Сефевидской империи началась борьба между англичанами и португальцами. В ходе этой борьбы шах Аббас, заинтересованный в изгнании португальцев из Ормузда и старавшийся с этой целью пользоваться флотом компании, решительно защитил Англию.

В решении Ормуздского вопроса проявились дипломатические способности шах Аббаса. Пообещав уступить Ормузд англичанам, шах, чтобы вернуть часть территории Персии, умело воспользовался создавшейся ситуацией.

**Ключевые слова:** торговля, Персидский залив, Ормузд, колониализм

## SAVAVIS' STRUGGLE FOR ORMUZ AND ITS CONSEQUENCES

**N.B.MAMMADOVA**

### SUMMARY

The end of the second – beginning of the third decade of the XVII century was an important period for the East Indian Company's operations in the Safavid Empire. This was the period when the Company was persuing an active colonial expansion policy in the Middle East.

At the same period the Anglo-Portuguese war broke out in the Safavid Empire. During this war, Shah Abbas fought on the side of England to get the Portuguese out from Ormuz and make use of Company's fleet.

Diplomatic skills of Shah Abbas played an important role in solving the Ormuz issue. In order to get back the part of Persian Empire, Shah promised to step back and give Ormuz to England.

**Key words:** trade, Persian Gulf, Ormuz, colonialism